

# Ulu Öndər və milli mədəniyyətimizin tərəqqisi

*"Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir"*

**Heydər Əliyev**

XX əsrdə intibahın və milli şüurun oyanışı Heydər Əliyevin 1969-cu il iyulun 14-də respublikamızda hakimiyyətə gəlişi ilə başlamış, müstəqilliyimizin təməli məhz o dövrdə əbədi və dönməz xarakter almışdır. Ölkəmiz dünyada layiq olduğu mərtəbəyə Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilmişdir. Məhz ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi o illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı, kadr korpusunun milliləşdirilməsi istiqamətində qətiyyətli addımlar atıldı. Ulu öndər Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişi keçmiş SSRİ-nin geridə qalmış respublikalarından biri sayılan Azərbaycanda həyat ritmini büsbütün dəyişdi, ölkədə görünməmiş canlanma və yüksəliş, tikinti-quruculuq işləri başlandı. Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində iqtisadiyyat, sənaye və kənd təsərrüfatında, mədəniyyət və təhsil sahəsində böyük uğurlar əldə edildi, çoxsaylı sənaye müəssisələri, mədəniyyət və təhsil ocaqları, tibb müəssisələri inşa edildi, yeni yaşayış massivləri salındı, yollar tikildi.

Ümummilli Liderin xalqımızın tarixi keçmişinə, klassik ədəbi qaynaqlarına, ana dilinə, milli-mənəvi sərvətlərinə həssas və qayğıkeş münasibəti bu sahənin öyrənilməsi, qorunub yaşadılması işinə güclü təkan verdi. Ulu Öndər bütün həyat fəaliyyətini Azərbaycan xalqının və respublikamızın hərtərəfli inkişafına, azərbaycançılıq ideyasının milli şüurda qərarlaşmasına, müstəqil dövlətçiliyin möhkəmlənməsinə, Azərbaycan mədəniyyətinin və incəsənətinin bütün dünyada tanıdılmasına həsr edib. Dahi rəhbər siyasi dövlətçilik fəaliyyətində Azərbaycanda digər sahələrlə yanaşı, mədəniyyət və incəsənətin də davamlı tərəqqisi yolunda böyük və əvəzsiz tarixi xidmətlər göstərib. "Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir" deyən Ulu Öndərin Azərbaycan mədəniyyətinin inkişafına daim böyük önəm verib. Mədəniyyətimizin inkişafında Heydər Əliyev mərhələsi XX əsrin 70-ci illərinin əvvəllərindən başlayıb. Həmin dövrdə geniş mədəniyyət müəssisələri şəbəkəsinin formalaşdırılması, mədəniyyət sarayları və mədəniyyət evləri, kitabxanalar və klublar, muzeylər və musiqi məktəbləri üçün möhtəşəm binaların tikdirilməsi ənənəsi də məhz ulu öndərimiz Heydər Əliyevə məxsusdur. Ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətində Azərbaycan mədəniyyətinin davamlı inkişafı müstəsna yer tutub.

Ulu öndər Heydər Əliyev Azərbaycanda mədəniyyətin maddi-texniki bazasının möhkəmlənməsinə xüsusi diqqət yetirirdi. Nə qədər kinoteatrlar, teatr binaları, muzeylər inşa olundu. Mədəniyyətimizin kadr potensialı gücləndirildi. SSRİ-nin ən nüfuzlu ali məktəblərində Azərbaycan gəncləri təhsil alıb Bakıya dönürdülər. Sankt-Peterburqun, Moskvanın teatr, rəssamlıq, musiqi üzrə ali təhsil ocaqlarını bitirmiş gənclər bu gün Azərbaycan mədəniyyətinin aparıcı sənətkarlarıdır. Azərbaycanın tanınmış mədəniyyət xadimləri sənətkarları 1969-1982-ci illərdə məhz Ümummilli Liderin qayğısı nəticəsində Sosialist Əməyi Qəhrəmanı kimi SSRİ-nin yüksək fəxri adını almışlar. Dahi şəxsiyyət bəstəkarların, kinematoqrafçıların, teatr xadimlərinin, rəssamların qurultaylarında, konfranslarında iştirak edir, dərin, məzmunlu nitqləri maraqla qarşılanırdı.

Ulu öndər Heydər Əliyev hakimiyyətinin bütün dövrləri Azərbaycanın ictimai həyatının bütün sahələrində olduğu kimi, ədəbiyyatımızın da dünyada daha ünlü, daha bəşəri tanınması və qəbul olunması dövrüdür. İstər 1969-1983-cü, istərsə də 1993-2003-cü illər Bakının görkəmli yerlərində Mikayıl Müşfiq, Hüseyn Cavid, Füzuli, Nəsimi, Cəfər Cabbarlı kimi yazarların heykəlləri qoyulmuş, Məhəmməd Füzulinin 500 illiyi, Dədə Qorqudun 1300 illiyi təkcə Azərbaycanda deyil, ayrı-ayrı ölkələrdə təbliğ olunmuşdur.

Ulu Öndər həm SSRİ zamanında, həm də müstəqil Azərbaycana rəhbərliyi dövründə milli kinematoqrafiya sənətinə, kino xadimlərinə xüsusi diqqət və qayğı göstərib. Müstəqillik illərində də Ulu Öndərin rəhbərliyi ilə kino sənətinə xüsusi diqqət göstərilmişdir. Ümummilli Liderimizin 1998-ci il 19 avqust tarixli Fərmanı ilə Azərbaycanda "Kinematoqrafiya haqqında" Qanun qəbul olunmuşdur. Bununla yanaşı, bir sıra Azərbaycan filmləri yüksək dövlət mükafatlarına layiq görülmüş, aktyorlar, rejissorlar və ssenari müəllifləri beynəlxalq kino festivallarında və müsabiqələrdə mükafatlar almışlar. Kinorejissor Vaqif Mustafayevin ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən "General", "Birinci", "Moskva, Kreml", "Lider", "Tale", "Əsl məhəbbət haqqında", "Bir həsədin tarixi", "Professional", "Patriot", "Xüsusi təyinat" və "Dövlət" filmləri müasir dövrümüzün ən dəyərli sənət nümunələri kimi kinosevərlər tərəfindən maraqla qarşılanmışdır. Bakıda məşhur dünya neft şirkətləri ilə bağlanmış saziş Vaqif Mustafayevin "Əsrin sazişi" filmində öz əksini tapmışdır. Ümummilli Liderin kinonun inkişafı üçün gördüyü işlər ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısı 2007-ci il fevralın 23-də "Kino sənətinin inkişafı haqqında", 2008-ci il avqustun 4-də isə "Azərbaycan kinosunun 2008-2018-ci illər üçün inkişafına dair Dövlət Proqramı" haqqında sərəncamlar imzalamışdır. Dövlət proqramında kinofilmlərin istehsalının artırılması, eləcə də müasir kino avadanlıqları və texnikası ilə təchizat, xarici ölkələrlə birgə film istehsalının genişləndirilməsi, kinoteatrların yenidən qurulması nəzərdə tutulmuşdur.

Ümummilli lider Heydər Əliyevin xalqımızın təkidli tələbi ilə respublikamızda ikinci dəfə hakimiyyətə qayıdışı ilə Azərbaycan mədəniyyəti yeni inkişaf mərhələsinə qədəm qoydu. Musiqi sənətimizin inkişafına xüsusi qayğı ilə yanaşan Ulu Öndərin Sərəncamı ilə bəstəkar və musiqişünaslarımıza Prezident təqaüdü verildi. Onların bir çoxu "Şöhrət" ordeninə layiq görüldülər. Arif Məlikov, Müslüm Maqomayev, Zeynəb Xanlarova, Habil Əliyev, Arif Babayev kimi musiqi xadimləri "İstiqlal" ordeni ilə təltif olundular. Respublikamızda mədəniyyət müəssisələri, kitabxanalar, teatrlar təmir olundu, Filarmoniya təmirdən sonra yenidən istifadəyə verildi.

**Ulu öndər Heydər Əliyevin Azərbaycan dövləti və xalqımız qarşısında misilsiz xidmətləri heç vaxt unudulmayacaqdır.**

**Zahid Rza,**
***"İki sahil"***